**"Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar qərara alıram:

1. Müəyyən edilsin ki:|

"Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin ikinci hissəsində və 16-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi və “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti həyata keçirirlər; [2]

həmin Qanunun 20-ci maddəsinin ikinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur.[3]

həmin Qanunun 17-ci maddəsinin birinci hissəsində və 18-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

**Azərbaycan Respublikasının Prezidenti**

**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**№ 375**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2936.**